**Süleymanova Fatma Qoşqay qızı**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
hemid6864@gmail.com

# SOSİALİST REALİZMİ DÖVRÜNDƏ AZƏRBAYCAN RƏSSAMLARININ YARADICILIĞINDA XƏZƏR MÖVZUSU (tezislər)

XX yüzilliyin 20-30-cu illərində Sovet İttifaqı sənaye dövləti kimi formalaşırdı. Bu illərdə bütün ölkə boyu, eləcə də Azərbaycanda çoxlu sayda zavod və digər sənaye obyektləri inşa edilirdi. Neft sənayesinin strateji məhsul kimi əhəmiyyəti nəzərə alınaraq daim ön sıralarda idi.

Sosialist realizmi üslubu akademizm və realizmin sintezini, başqa cür desək, realist rəssamların yaratdığı ənənələri nəzərdə tuturdu. İncəsənətin bütün sahələrində bu üslub hər şeydən üstün idi.

Ölkə həyatında baş verən ictimai və iqtisadi dəyişikliklər sovet dövrü təsviri sənətində xüsusi xarakter əldə etdi. Bu dəyişikliklər təsviri sənətin növlərindən olan rəngkarlıqda da öz əksini tapdı.

Belə ki, 1930-cu illərdə rəngkarlıqda yeni istiqamət "Sənaye mənzərəsi" meydana gəldi. Sovet ideoloqları üçün rəngkarlıqda sənaye mənzərəsinin əksi sovet həyat tərzinin təbliğatı baxımından çox güclü bir alət idi və ictimai həyatın bütün sahələrində eləcə də sənaye sektorlarında ölkənin qələbələrini əks etdirməli idi.

Azərbaycanda rəssamların yaradıcılıqlarında əsas mövzulardan biri də məhz yeni şəhərlər salınan, böyük sənaye obyektləri tikilən zəngin təbii sərvətlər, metallurji və kimyəvi kombinatların təsviri idi. Bu dövrdə yaradılmış əsərlər heç şübhəsiz ki, sosializm dövrünün tələblərinə uyğun işlənirdi.

Reallıq, yumşaq tonların üstünlüyü, fəhlə və neftçi əməyinin xarakterini nümayiş etdirən lirik, romantik, optimist əhval-ruhiyyə- məhz bunlar rəsmin əsas xüsusiyyətləri idi.

Neft mövzusu Azərbaycan rəngkarlığında ən mühüm yerlərdən birini tuturdu. Rəssamlarımız bu sərvətin daşıdığı dəyəri anlayaraq daim bu mövzuya maraq göstəriblər.

Xəzərin qoynunda ucalan Neft Daşlarının tikintisinin döyünən ritmini, ölkənin gələcəyini quran yeni nəsli əks etdirmək Azərbaycan rəngkarlarının yaradıcılıqlarında əsas xüsusiyyətlərdən idi.

## Ədəbiyyat:

1. Axundova N. Azərbaycan rəssamlarının yaradıcılığında sənaye mənzərəsi janrı. S.ü.f.d. elmi dərəcəsi almaq təqdim etdiyi dissertasiya. Bakı, 2014.
2. Həbibov N. Azərbaycan sovet rəssamlığı – Bakı: Elm,
3. Məlikova Ə. Neft və təsviri sənət – Bakı: EXRO ORQ
4. Sovet Ensiklopediyası. Təsviri incəsənət və memarlıq – Bakı, 1967

**Rəyçi: sənətşünaslıq üzrə fəlsəfə doktoru A.Xəlilov**